

FAİQ QİSMƏTOĞLU
faiq_qismetoglu@box.az

# DÜYÜN

## Yaxud yolun ortasına atılmış meyit

(Əvvəli 25 yanvar sayımızda)

... Məhkəmə prosesinin uzanması həm hakimi yormuşdu, həm də müttəhimləri. Hakim də çalışırdı ki, məhkəmə istintaqında qaranlıq məqamlara işıq salsın, düyünə düşmüş cinayət işinin açılmasına çalışsın. Məmməd Kərimov məhkəməni bir neçə günlüyə təxirə saldı. Gəlib kabinetində əyləşərək masanın üstünə qoyduğu "Malbro" siqaretinin qutusundan birini götürüb yandırdı. Bir neçə qullab vurdu, siqaretin tüstüsü ətrafa yayıldı. Ayağa qalxıb pəncərəni açdı ki, siqaretin tüstüsü çölə çıxsın. Kabinetə girib eləyən olar, siqaretin tüstüsü onları tutar. O heç kabinetdə siqaret çəkən də deyildi.

... Bu dəfə necə oldusa, əsəbindən siqareti yandırdı və yenidən bir neçə qullab vurdu. Cinayət işinin materiallarını bir də nəzərdən keçirdi. Çünki ilkin istintaqla məhkəmə istintaqında verilən ifadələr üst-üstə düşmürdü. Hələ üstəlik hər iki müttəhimin - Eldar və Nəcəf qardaşlarının paltarlarındakı qan izləri ilə bağlı ekspertiza rəyi də verilmişdir. Həmin rəydə göstərilirdi ki, onların paltarındakı qan izi insan qanı deyil, heyvan qanıdı. Bütün maddi sübutlar cinayət məsuliyyətinə cəlb olunmuş hər iki müttəhimin xeyrinə idi. Elə hakim Məmməd Kərimov da ekspertiza rəylərindən sonra da düzgün yol tutduğuna bir daha əmin olmuş və haqq-ədalətin qalib gəlməsi üçün sona qədər bir hakim olaraq mübarizə aparacağına inanırdı.

Ekspertiza rəylərinə baxandan sonra bir qədər sakitləşdi və dərindən nəfəs aldı. Bu sakitlik onun çöhrəsində də özünü göstərdi. Gərgin məhkəmə istintaqı zamanı birinci dəfə idi ki, onun çöhrəsinə təbəssüm qonurdu. Açıq pəncərədən kabinetə Ərgünəşin təmiz havası dolurdu. Və bu təmiz hava hakimin qəlbini, ürəyini bir az da sakitləşdirirdi...

... Poçtalyon Qədir hakim Məmməd Kərimovla dostluq eləyirdi. Daha doğrusu, bir dəfə "dolaşıq işi" olmuşdu, poçtalyon Qədir də möhkəm qorxuya düşmüşdü, qaçmışdı Məmməd Kərimovun yaxın dostu, rayspolkomun sədr müavini Hacıyevin yanına. Hacıyev də hakimlə danışmışdı və onu tapşırmışdı. Hakim də demişdi ki, qorxmasın, gəlsin yanıma! Elə birinci tanışlıqdan Məmməd Kərimovun poçtalyon Qədirdən xoşu gəlmişdi. Çünki poçtalyon Qədir elə-belə adam deyildi. Çox duzlu, məzəli, yumorlu və minlərlə lətifə bilən şirin bir adam idi. ... Onun söhbətinə kimsə bir dəfə qulaq assaydı, çətin ki, bir də ondan ayrılardı. Və poçtalyon Qədir də həm Seyran Səxavətlə dostluq eləyirdi, həm də digər tanınmış böyük yazarlarla. Çox vaxt onu heç kim rahatlıqla tapa bilməzdi. Pullu və imkanlı adamlar poçtalyon Qədiri axtarıb tapar, onu yeyibiçməyə aparar və məclislərində tamadalıq eləyərdi.

Bax, beləcə rayonun hakimi Məmməd Kərimovla poçtalyon Qədirin dostluğu yaranmışdı. Bu dəfə də poçtalyon Qədirə Seyran Səxavət iki kitab vermişdi. Biri özünün "Daş evlər"i, biri də "Firon" kitabı. Tapşırmışdı ki, hər ikisini tezliklə hakimə çatdırsın. O da hakimin katibəsi əyləşən kabinetə girdi və dedi:

- Sudyaya deyin, poçtalyon Qədir gəlib.

Katibə dinmədi. Poçtalyon Qədir bundan daha da əsəbləşdi:

- Aaz, niyə dinmirsən? Get sudyaya denən ki, poçtalyon Qədir gəlib dayna!

Katibə:

- Deyə bilmərəm. Çünki sudyanın qanı çox qaradı. Səndən əvvəl rəisin müavini gəlmişdi, qəbul eləmədi. Dedi ki, başım qarışıqdı. İndi mən durum deyim ki, poçtalyon Qədir gəlib? Axı sən kimsən ey, Allahın bacısı oğlusan, rəissən, yoxsa Tiflis Ağayevsən?

- Aaz, sənin nə işinə qalıb ey. Get de, qoy qəbul eləməsin dayna!

Katibə qız gördü ki, bu poçtalyon Qədir ondan əl çəkən deyil, ayağa qalxıb hakimin otağına keçdi. Bir dəqiqədən sonra gülə-gülə qayıtdı:

- Sən nə hörmətli adamsanmış, sudya deyir gəlsin. Keçin içəri!- dedi.

Poçtalyon Qədir içəri keçən kimi hakim Məmməd Kərimov kreslodan ayağa qalxdı:

- Ay Qədir, bu Füzulidə hamı səni tanıyır, bu qız tanımır. Təzə işləyir ey, ona görə. Tay o da səni tanıdı. Nə var, nə yox? Yenə qoltuğunda nəsə gətirmisən elə bil...

Hakim onunla çox səmimi görüşdü. Əyləşmək üçün yer göstərdi. Aralarında səmimi söhbət yenidən başlandı. Hakim katibəyə dedi ki, iki stəkan çay gətirsin. Katibə qız da bir göz qırpımında iki stəkan çayı gətirib masanın üstünə qoydu. Qədir içərisində kitab olan bağlamanı hakimə tərəf uzatdı. Və əlavə etdi ki, bunları sənə dostunuz Seyran Səxavət göndərib. Hakim bağlamanı açdı, orda həm Seyran Səxavətin, həm də çoxdan axtardığı məşhur bir kitabı görəndə çox sevindi. "Daş evlər"i və "Firon"u bir nəfəsə vərəqlədi. Dedi axşam oxumağa başlayacağam. "Firon" kitabını nə vaxtdandı rayonda axtarırdım tapa bilmirdim . Çox sağ olsun Seyranı, bu kitabı tapıb mənə göndərib...

Poçtalyon Qədir gördü ki, kitabları gətirməyi hakimi çox sevindirdi. Hətta Məmməd Kərimov ayağa qalxıb dedi ki, bu kitablara görə, "Çənlibel"də bir qonaqlıq mənim boynuma. Yoxsa, bu dəqiqə durub gedib orda başımızı açıb rahat oturardıq. Amma bir cinayət işi var. Onun məhkəmə işini başa çatdırmamış boğazımdan çörək rahat keçməz.

Poçtalyon Qədir dilləndi:

- Ay sudya, onsuz da sən bizə həmişə qonaqlıq verirsən ey! Bir dəfə də olsun kimisəni şot vermək üçün əlini cibinə salmağa qoymursan. Ay rəhmətliyin oğlu, imkan ver, bir dəfə də biz sənin qulluğunda duraq da! O gün Seyran Səxavət deyirdi ki, Füzuliyə gələndə, sudya, sən, mən qardaşım Xanlargildə ev şəraitində oturub bir tikə çörək kəsərik...

Məmməd Kərimov ona bir qədər yaxınlaşıb dedi:

- Darıxma, bu Füzuli camaatı çox gözəl insanlardı. Harda, necə desən, Allah qoysa, Seyran Səxavətlə oturub bir yerdə çörək kəsərik. Sizin camaat çörəyə, dostluğa çox sədaqətlidi...

Hakim Məmməd Kərimov poçtalyon Qədirin ayağa qalxdığını görüb onu ötürmək istədi. Poçtalyon Qədir də dedi ki, sudya, sənə bir xoruz səsi eşitməmiş anektod deyib gedirəm. Bir lətifə danışdı, hakim uğunub getdi. Qapıya qədər poçtalyon Qədiri ötürdü. Çölə çıxanda katibə qız ona diqqətlə baxdı. Poçtalyon Qədir ona da bir lətifə danışdı. Bu lətifədən sonra qaş-qabağı yer süpürən katibə qızın çöhrəsində gülüş yarandı...

... Raykomun birinci katibi Qədim Əhmədov, rayon prokuroru Zeynalovu, milis rəisi Dadaşovu qəbuluna çağırtdırmışdı. Və onlar da bilirdi ki, katib onları nəyə görə bura dəvət eləyib. Bəri başdan həm prokuror, həm də rəis hansı suallar veriləcəyini yaxşı bilirdi. Köməkçi dedi:

- Katib sizi kabinetə dəvət edir.

Raykomun birinci katibi Qədim Əhmədov çox savadlı, həm də səbrli bir adam idi. Yəni hamını axıra qədər kimliyindən asılı olmayaraq, dinləməyi bacarırdı. Prokuror da, rəis də birinci katiblə əl görüşdülər. Sonra stulda əyləşdilər. Katib üzünü prokurora tutub dedi:

- Tay mən kabinetdə otura bilmirəm. Sekadan həftə səkkiz, mən doqquz zəng edib Bəhmənlidəki ölüm hadisəsi ilə bağlı məndən məlumat istəyirlər. Həm zərərçəkən, həm də ittiham olunan tərəf bütün günü yuxarılara şikayət yazır. Siz isə bu cinayət işinin üstünü hələ də aça bilməmisiniz. Bəs onda o kreslodа niyə oturmusunuz?

Prokuror Zeynalov sakit tərzdə bildirdi:

- Yoldaş Əhmədov, cinayət işinin üstünü çoxdan açmışıq. Ölən də məlumdu, öldürən də. Bircə qalır cinayətkarlara cəza təyin etmək. Bax, bunu da hakim Məmməd Kərimov uzadır. Bilmirik, qarnının ağrısı nədir?

Prokuror sözünü tamamlamamış milis rəisi Dadaşov o fikri davam etdirdi:

- Prokuror düz deyir, hadisə vaxtı mən məzuniyyətdəydim. Məzuniyyətdən gələn kimi cinayət işiylə maraqlandım. Gördüm ki, müstəntiqlər bütün istintaq hərəkətlərini və əməliyyat-axtarış tədbirlərini peşəkarlıqla aparıblar.

Amma baş açmırıq ki, hakim Məmməd Kərimov nə üçün bu prosesi bitirmir və müttəhimlərə də cəza təyin etmir?

Birinci katib həm prokuroru, həm də milis rəisini dinləyəndən sonra bərk əsəbləşdi:

- Siz necə prokuror, rəissiniz ki, 25 yaşında bir hakimlə bacarmırsınız? Deyəsən, onun boynu hələ qoltuq altı görməyib. Bu işi uzatmaq olmaz.

... Birinci katib Qədim Əhmədov prokurorla, rəislə söhbətindən sonra köməkçisinə dedi ki, hakim Məmməd Kərimovu təcili raykoma çağırsınlar. Məmməd Kərimov da məhkəmə prosesini yenicə başlamışdı. Birinci katibin çağırışını hakimə çatdırdılar. O isə çox soyuqqanlı halda prosesi təxirə saldı və düşündü ki, birinci katib onu çağırıbsa, deməli, prokuror da, rəis də onu "baqaja" qoyub...

... Raykomun binası ilə məhkəmənin arasındakı məsafə bir o qədər də uzaq deyildi. Cəmi 300-400 metr idi. Sürücü maşını işə saldı ki, hakimi raykoma aparsın. Amma hakim əliylə işarə elədi ki, maşına ehtiyacı yoxdu, piyada gedəcək. Hakim piyada raykomun binasına sarı addımlayırdı. Bu vaxt onun qarşısına "Araz" qəzetinin redaktoru Məcnun Namazəliyev çıxdı. Onsuz da Füzuli camaatı hakim Məmməd Kərimovun piyada getməsini çox görmüşdü. Və bu dəfə də piyada getməsi heç Məcnun müəllimi də təəccübləndirmədi. Amma Məcnun müəllim öz təklifini elədi:

- Kərimov, maşına ehtiyac varsa, hara deyirsiniz, sürücüyə göstəriş verim aparsın.

Haki güldü və dedi:

- Məcnun müəllim, çox sağ olun! Qədim Əhmədov qağırıb, gedim görüm nə deyir.

... Raykomun binasına çatanda şöbə müdirləri və digər əməkdaşlar hakim Məmməd Kərimovla çox mehribancasına görüşdülər. Hələ Məhərrəm Nəzərov bir zarafat da elədi:

- Sən belə yerlərə gələn deyilsən, xeyir ola?

Hakim:

- Əhmədov dəvət eləyib. Qalxıram yanına!

... Pilləkənləri hakim çox səbrlə qalxdı. Elə qalxırdı ki, sanki 25 yaşında cavan oğlan yox, 70 yaşında bir insan addımlayırdı. Çünki cinayət işiylə əlaqədər o qədər beynində fikir dolaşırdı ki, özü də hiss edirdi ki, həddindən artıq yüklənib. Qəbul otağına keçdi. Köməkçi hakimi görən kimi ayağa qalxdı və daxili telefonu götürüb birinci katibə məlumat verdi:

- Yoldaş Əhmədov, hakim Məmməd Kərimov gəlib...

(Ardı növbəti şənbə sayımızda)